**SEYID FAZIL HÜSEYNI**
***AMEA M. Füzuli adına Əlyazmalar İnstitutunun dissertantı***

# "ZƏXİREYİ-XARƏZMŞAHİ" ƏSƏRİNDƏ CÜRCANİNİN TİBBƏ AİD FİKİRLƏRİ

İnsan, zəka və məntiq gücünə malik yeganə varlıqdır. Bu istdad dil və nitq mədəniyyətinə ehtiyac duyur. Quran dili ilə bu belə bir ifadə ilə izah edilir "**Ələmtülbəyan**". Aydındır ki, elmin müxtəlif sahələrində insanların inkişaf edərək nailiyyətlər əldə etmələri bəşəri elmlərin ötürülməsi sayəsində mümkün olmuşdur. Bu proses əsrlərlə davam edərək indiki dövrümüzə gəlib çatmışdır. Bu elmlər, biliklər yalnız və yalnız kitab və yazılarla indiki nəsillərə ötürülmüşdür. Bəşəri sözlər və yazılar arasında bəziləri digərlərindən düşüncə və məna baxımından fərqlənirlər. Xalqlar əsrlər boyu bu fərqli ifadələri və yazıları layiqli və üstün bilərək qeydə almış və müəyyən zaman kəsiklərində dəfələrlə kitablarda qeydə almışlar.[5,s.48

Bu üstün düşüncələrin bariz nümunələrindən biri "Zəxireyi-Xarəzmşahi" adlanın böyük bir tibbi ensiklopediya sayılan kitabdır. Bu kitab Həkim Seyid İsmayıl Cürcaninin ən böyük, dəyərli, məşhur və qiymәli əsəri sayılır. Əsər İran və İslam dünyasında tibb üzrə yüksək məqama çatmış alim kimi Cürcaniyə şöhrət gətirmişdir.[8,s.63]

Seyid İsmayıl Cürcani tibb aləmində böyük xidmətlər göstərmişdir. Ad və ləqəbi Zeynəddin olan Seyid İsmayıl miladi 1042-ci ildə (h.q.433) Cürcanda doğulub və Mərvdə 1136-cı ildə (530-ci h.q.) vəfat edib.[7,719s.] O, Əbu Əli Sinadan 100 il sonra yazıb-yaratmış və İranda tibb elminin çiçəklənməsində və inkişafında özünəməxsus əvəzsiz xidmətləri olmuşdur. Cürcaninin fars dilində yazdığı "Zəxireyi-Xarəzmşahi" kitabında xəstəliklər və onların müalicə metodları, səhiyyənin müxtəlif aspektləri, qidalanmanın insan sağlamlığındakı əhəmiyyəti, müalicəvi bitkilərlə müalicə üsullarına dair dəyərli fikirlər və zəngin biliklər bir araya gətirilmişdir. Bundan başqa, Cürcani bu kitabda elmi terminlərdən istifadə etməklə fars dilinin terminologiya baxımından inkişafında böyük və dəyərli xidmətlər göstərmişdir.[4,249s.]

O zamanın tibb elminə dair biliklərinin toplanaraq bir araya gətirilməsi, vahid bir ensiklopediya halına salınması Cürcaninin tibb elminin inkişafına daha bir xidmətidir. Belə ki, o, kitabının giriş hissəsində belə yazmışdır: "..... bu kitab bütün xüsusiyyətləri özündə cəmləşdirib, o bütün qapıları təbibin üzünə açır və məlumdur ki, belə bir nizamla yazılmış digər kitab yoxdur və ......".[4,s.249]

Ənənəvi təbabətin tibb elminə dair baxışları ilk anda profilaktiki, sonra isə müalicəvidir. Ənənəvi təbabət praktiki təbabəti iki hissəyə bölür – "Hifzül-səhhət" və "Elmül-əlac", başqa sözlə desək sağlamlığın qorunması və müalicə elmi. Belə ki, səhiyyə və gigiyena müalicədən əvvəlki mərhələdə durur. [9,s.67]

Bu baxışa əsaslanaraq Cürcani "Zəxireyi-Xarəzmşahi" kitabında sağlamlıq və səhiyyə sahələrinin müxtəlif aspektlərinə toxunmuşdur. Bunlar idman, qidalanma, yaşayış tərzində gigiyena qaydalarına riayət, hava və suyun keyfiyyəti, suyun saflaşdırılması kimi məqamlara şamil olunur. Bu məqalədə onların bir qismi araşdırma mövzusu olmuşdur.

Mənbələr əsasında aparılmış araşdırma və mütalilərə istinadən yazılan bu məqalədə 1210-cu ildə köçürülməsi ehtimal edilən "Zəxireyi-Xarəzmşahi" kitabının qədim və nəfis nüsxələrinə istinad edilmişdir. Onu köçürənin adı məlum deyildir. Bu nəfis nüsxə 1977-ci ildə Səidi Seyrcaninin səyi sayəsində İranın Mədəniyyət Fondi tərəfindən çap edilmişdir (nömrə 249).[9]

Cürcani, "Zəxireyi-Xarəzmşahi" kitabını 10 cilddən ibarət tibbi ensiklopediya şəklində yazmışdır. Onun giriş hissəsində hər bir bölməyə aid məqamlar qeyd olunmuş və daha sonra

nizamlı bir şəkildə həmin məqamların detallarının izahını vermişdir. O, sağlamlıq və gigiyena sahələrinə, eləcə də xəstəliklərə yoluxmanının qarşısının alınması üçün profilaktiki tədbirlərə xüsusi diqqət göstərmişdir. Belə ki, əsərin 14 bölməsini bu mövzulara ayırmışdır: Ağız boşluğu və dişlərin gigiyenik vəziyyəti, xəstəliklər və onların müalicə üsulları barədə. O, ağız boşluğu və dişlərdə əmələ gələn xəstəliklərin qarşısının alınması və müalicəsi ilə əlaqədar müalicəvi bitkilər barədə şərhlər vermişdir. Səkkizinci kitabında saç, dəri və dırnaqlarla əlaqədar gigiyenaya, bəzək üçün istifadə edilən maddələrin xassələrinə və ümumi gigiyena sahələrinə toxunmuşdur. Üçüncü kitabında ətraf mühitin gigiyena sahələrinə (su, hava, torpaq və yaşayış yerləri) spesifik diqqət göstərərək, sağlamlığın qorunma üsulları, yatmaq və oyaq qalmaq, fəaliyyət və hərəkətsizlik, cismani xəstəliklər barədə ətraflı mülahizələr irəli sürmüşdür. [9,s.67]

Cürcani sağlamlığın qorunması üçün zəruri bilinən altı üsulu dəyərli mövzulardan sayaraq, özünün üçüncü kitabında bunların geniş və əhatəli şərhini vermişdir. Onun bu barədə baxışlarına aşağıda qısa şəkildə toxunuruq: [1,s.401; 2,s.100; 3,s.261]

**Hava:** Cürcani insanın yaşaması üçün zəruri sayılan amillərdən biri olan havaya böyük əhəmiyyət verirdi. O, təmiz havanın insanın sağlamlığındakı əhəmiyyəti barədə fikirlər söyləmişdir. Onun baxışlarına görə saf və təmiz hava heç bir yad maddələrlə bulaşmayan havadır. Onun fikrincə, insanın xoş əhval-ruhiyyədə olması, yorğunluğun aradan qalxması, enerji və qüvvənin artması, insanın psixoloji durumunun tənzimlənməsində və normada olmasında havanın böyük və əhəmiyyətli rolu var. O, belə düşünürdü ki, ağır hava insanın iş qabiliyyətini azaldır və çirkin hava tənəffüs prosesində problemlər yaranmasına səbəb olur. O, kənar maddələrdən təmiz hava, eləcə də indi gündəmdə olan atmosfer çirklənmələrini diqqət mərkəzində saxlamışdır. Cürcani öz əsərlərində havanın keyfiyyətinin insanın, bitki və heyvan aləminin yaşam tərzinə təsir imkanlarından bəhs etmişdir.

**Su:** Cürcani suyun təmizliyi və keyfiyyəti barədə çoxlu biliklərə malik təbib idi. O öz əsərlərində suyun xassələrindən bəhs etmiş, suyun 16 növünü sadalayaraq, suyun saflaşdırılması tədbirlərindən söz açmış və suyun saflaşdırılması üçün 5 elmi və praktik üsul irəli sürmüşdür.

Onun baxışlarına görə ekoloji cəhətdən təmiz su sağlamlığın qorunmasında böyük və son dərəcə əhəmiyyətli rol oynayır. Suyun təmiz və saf olması, onun rəngi, iyi, tamı, şəffaflığı, yüngüllüyü, və ağırlığı ilə bağlıdır. Cürcani bütün bu xüsusiyyətləri çox yaxşı bilirdi və bunları "suları sınaqdan keçirmə yolları" adlandırmışdı. Misal olaraq deyə bilərik ki, o, saf suyun xassələrinə gəldikdə belə yazırdı: "Onda hər hansı bir yad maddə, hər hansı bir rəng, tam və iy yoxdur".

**Qida:** Cürcaninin baxışlarına görə düzgün qidalanma insan sağlamlığında təsirli rola malikdir. O, yeməli və içməli maddələrin keyfiyyəti, yemək və içməyin əsas ünsürləri, qidalanmadan meydana gələn reaksiyalar, qidalanma rejimi, qidanın hansı vaxtda, hansı miqdarda və növdə olması, qidalanma adətləri barədə öz əsərinin bir neçə hissəsində izahlar və mülahizələr vermişdir.

**Fəaliyyət və istirahət:** Onun baxışlarına görə hərəkət bəşəriyyətin yaşaması üçün çox zəruri amillərdəndir. Fəaliyyət və işdən sonra istirahət etmək isə bədənin yenidən qüvvə toplaması üçün çox vacib şərtdir. Kitabın üçüncü cildinin altıncı bölməsində hərəkət mövzusundan bəhs edərkən idmana toxunur. O, sağlamlığın qorunmasında müxtəlif idman növlərinin əhəmiyyətli rolundan danışır. Hətta idman hərəkətlərindən sonra masajın insan sağlamlığının qorunmasında və xəstəliklərin önlənməsində təsirli rolundan danışır.

**Yatmaq və oyaq qalmaq:** Cürcani üçüncü cildin beşinci fəslində sağlamlığın qorunmasında yatmaq və oyaq qalmaq arasında balansın zəruriliyinə və əhəmiyyətinə toxunaraq, bu barədə çox diqqət çəkən məqamlara toxunmuşdur. O, yuxunun növləri, yatma haləti, zə-

rərli maddələrin insan orqanizmindən xaric olmasında yuxunun təsirləri barədə geniş və ətraflı fikirlər söyləmişdir.

**Ürək bulanma və qaytarma:** Həkim Seyid İsmayıl Cürcani qusma, ishal, qaytarma, qanalma, hacamət, zəli ilə müalicə, tərləmə, selikli qişa, bəlğəm kimi məqamlar barədə üçüncü cildin ikinci hissəsinin birinci bölməsində şərhlər vermiş, bədəndə xəstəliklərin meydana gəlməsinə səbəb olan artan bəlğəmlərin müalicəsi barədə yazmışdır.

**Nəfsani istəklər.** Cürcaninin fikrincə insanın ruhi və psixoloji durumu onun sağlamlığının qorunması və xəstəliklərinin sağaldılmasında əhəmiyyətli rola malikdir. Belə ki, psixoloji durum xəstəliyin qısa bir zamanda sağaldılmasına səbəb olur. Digər yuxarıda qeyd olunan zəruri tədbirlər silsiləsi (altılıq) isə nisbətən daha gec öz təsirini göstərir. Cürcani belə düşünür ki, insanlar şadyanalıq, kədər, qorxu, qəzəb, bu kimi digər psixoloji fayda və ziyanları tanımalı və dərk etməlidirlər ki, bununla da sağlamlıqlarını qoruya bilsinlər və xəstəliklərlə mübarizə aparmaq iqtidarında olsunlar.

Son onilliləklərdə səhiyyə, sağlamlıq və profilaktiki tədbirlərlə əlaqədar sahələrə daha çox əhəmiyyət verilməsini nəzərə alsaq, belə demək olar ki, bu mövzular XI və XII əsrlərdə yaşayıb yaratmış mütəfəkkirlərin diqqət mərkəzində olmuşdur. Belə ki, ağız və diş gigiyenası, dəri və saç xəstəlikləri, qadınların istifadə etdikləri və indiki zamanda kosmetika adlanan maddələrə dair məsələlər, hava və suyun gigiyenik vəziyyəti, idmanın sağlamlığın qorunmasında əhəmiyyəti və digər mövzular barədə Cürcaninin "Zəxireyi-Xarəzmşahi" əsərində ətraflı və geniş məlumatlar verilmişdir. Əhəmiyyətlisi budur ki, bu kitabda qeyd olunan məqamlar bugünkü elmlərlə müqayisə oluna, uyğunlaşdırıla bilər və bu da ümumi gigiyena sahəsində keçmiş metodların üzə çıxarmasına kömək edə bilər. Cürcanidən bizə miras qalmış əsərlərin elmi əhəmiyyətini, dəyərini və spesifikliyini nəzərə alaraq, düşüncə sahibləri, alimlər və tədqiqadçılar bu əsərləri dəqiq və dərindən araşdırmaqla bu kitablarda qeyd olunan dəyərli məqamları elmi cəhətdən izah etməlidirlər.[1,2,3,11,12]

### *ƏDƏBİYYAT:*

1. Cürcani S.İ. "Zəxireyi-Xarəzmşahi", ofset (çap, əksi əz ruye-nosxeye-xətti), vasitə Səidi Sircani. Tehran: Bonyade-Fərhənge-İran, 1976, [ 33, 401s.]
2. Cürcani S.İ. "Zəxireyi-Xarəzmşahi". Redaktə edən və şərhçi:Müstəfəvi S.C. Tehran: Bonyade-Fərhəngiye-Iran, 1973, 100s.
3. Cürcani S.İ. "Zəxireyi-Xarəzmşahi". Redaktə edən və şərhçi: Daneşpəjüh M.T.Əfşar İ. Tehran: Daneşgahe-Tehran, 1971, 261s.
4. Elgood S. Tarixe-Pezeşke-İran və Sərzəminhaye-Xelafəte-Şərqi. Tərcümə: Forqani B. Tehran: Əmir Kəbir, 2007, 249 s.
5. Qara Aqaclu S. Negəreşi bər Əhəmiyyəte-Təshihe-Nosəxe-Xəti Asare Doktor Mohəndes Ürməvi Xolase Məqalat Həmayeşe Mohəndes Ürməvi. Ürmiyye, Edareyye kole fərhəng və Erşade Azerbaycane-Qərbi, 1986, 48s.
6. Moəttər F. Xədəmate Cürcani be Fərhənge-Pezeşkiye-İran və Cəhan. Məcmueye-məqalate-Kongerye-Beynəlmeləliye-Tarixe-Pezeşkiye-İran və İslam. 2 cilddə, 1-ci c.Tehran: Moəseseye-Toseye-Daneşe-İran, 1992, **207** s.
7. Nəcmabadi M. Tarixe-tibb dər İrane pəs əz İslam. 2 cilddə, 2-ci cild. Tehran: Tehran Universiteti, 1996, **719** s.
8. Nizami Əruzi Ə. "Çahar məqale". Təshi Qəzvini M. Tehran: Əmirkəbir, 1985, 63 s.
9. Şəmse Ərdəkani M.R., Zolfeqari B. Mururi bər Tarix və Məbaniyye-tibbe sonətiyye-İslam və İran. Tehran: Məlaek, 2008, 67 s.
10. Anonymous, Air Quality Index Guide for Air Quality and Your Health. Vol1. Geneva: WHO; 2004.
11. Anonymous, W.H.O. Guideline for Drinking Water Quality, Vol1. Geneva: WHO; 2004.

12. Rahman , Hakim S. Z., "life and Work of Seyed Ismail Jorjani" Aligarh Muslim University Aligarh, İNDİA . 2001

**СЕЙИД ФАЗИЛЪ ХУСЕЙНИ**
***Институт Рукописей имени М.Физули при НАНА***

**МЫСЛИ ДЖУРДЖАНИ ПО МЕДИЦИНЕ В ПРОИЗВЕДЕНИИ «ЗАХИРЕИ-ХОРЕЗМШАХИ»**

Рукописи, богатые сведениями по медицине, оставшиеся нам в наследство от ученых, творивших в средние века, являются оченъ ценным и важным источником для медицинской науки. Эти рукописи обобщают в себе основные разделы истории медицины, особенно знания в области здравохранения и здоровья. Хаким Сейид Исмаил Джурджани (1042-1136) был одним из ученых, оставивших для будущих поколений ценное наследие в истории медицины и других отраслях науки. Его произведение «Захиреи-Хорезмшахи», посвященное медицине, здравохранению и здоровью считается одним из достоверных источников. В данной статъе приводятся мысли Джурджани по медицине, в частности, о гигиене ротовой полости и зубов, заболеваниях кожи и волос, гигиеническом состоянии воздуха и воды, значении спорта в укреплении здоровъя и других темах.

**SEYID FAZIL HUSEYNI**
***Institute of Manuscripts after M.Fuzuli under NASA***

**THOUGHTS OF JURJANI ON MEDICINE IN THE WORK "ZAKHIREYI-KHOREZMSHAHI"**

Manuscripts rich in medical information, left to us as inheritance from the scientists created in the Middle Ages are valuable source for medical science. These manuscripts contain main stages of history of medicine, especially knowledge on public health.

Hakim Seyid Ismail Jurjani (1042-1136) was one of scientists who left valuable legacy on history of medicine and other branches of science to next generations. His work "Zakhireyi-Khorezmshahi" dedicated to medicine and public health is considered one of reliable sources. In this article thoughts of Jurjani are given, in particular about hygiene of mouth and teeth, skin and hair diseases, hygienic state of air and water, importance of sport for keeping healthy and other themes.

***Rəyçilər: t.e.n.R.Məmmədova, f.e.d.Z.Hacıyev.***

***AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Elmi Şurasının 09 aprel 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №04).***